THE WORLD BANK
IBRD • IDA

**PRESS-RELİZ**

# Mərkəzi Asiya və Qafqazdan keçən Orta Dəhliz ticarət, bağlantılar və təchizat zəncirlərinə təkan verə bilər – Yeni hesabat bunu deyir

*Dəhliz 2030-cu ilədək marşrut boyu ticarətin həcmini üç qat artıra bilər*

**ASTANA, 27 noyabr 2023** — Düzgün siyasətlər həyata keçirilərsə, Çin və Avropa bazarlarını Mərkəzi Asiya və Qafqaz vasitəsilə birləşdirən Orta Dəhliz regional ticarəti canlandıra və marşrut boyu ölkələr arasında bağlantıları gücləndirə bilər. Dünya Bankının bu gün təqdim etdiyi yeni hesabatda deyilir ki, bu dəhliz həmçinin Çin-Avropa konteyner ticarəti üçün dayanıqlığı və marşrutların şaxələndirilməsini təmin edə, ölkələri və təchizat zəncirlərini geosiyasi şoklardan qoruya bilər.

Qazaxıstan, Azərbaycan və Gürcüstanı əhatə edən *"Orta Ticarət və Nəqliyyat Dəhlizi — 2030-cu ilə qədər yükdaşımaların həcmini üç dəfə artırmaq və səyahət vaxtını yarıya endirmək üçün siyasətlər və investisiyalar"* adlı hesabatda bu multimodal dəmir yolu və dənizçilik dəhlizini həyati əhəmiyyətli və etibarlı ticarət marşrutuna çevirə biləcək prioritet tədbirlər müəyyən edilir.

Hesabatda qeyd olunur ki, düzgün investisiyalar və siyasətlər olarsa, 2030-cu ilədək Orta Dəhlizdə ticarətin həcmi üç qat arta səyahət müddəti isə yarıbayarı azala bilər. Bu, yerli və regional iqtisadiyyatlara və daha geniş icmalara fayda verəcək, məşğulluq imkanları yaradacaq, yardımçı sənayelərə tələbatı artıracaq və biznesləri cəlb edəcək.

*"Bizim yeni məlumatlar təsdiq edir ki, Orta Dəhliz nəinki həyat qabiliyyətli ola, o həm də marşrut boyunca yerləşən ölkələrin iqtisadiyyatları üçün vacib amilə çevrilə bilər",* - **Dünya Bankının Avropa və Mərkəzi Asiya üzrə vitse-prezidenti Antonella Bassani** qeyd edib*. "Azərbaycan, Gürcüstan və Qazaxıstan digər ölkələrlə birlikdə öz baxışlarını uyğunlaşdırmaq və layihəni irəli aparmaqla xeyli irəliləyiş əldə ediblər. Dünya Bankı marşrut boyunca yerləşən ölkələrin hökumətləri və çoxtərəfli təşkilatlarla birgə Orta Dəhlizi dəstəkləmək əzmindədir".*

Orta Dəhlizin əhəmiyyəti və gücü onun regiondaxili ticarət dəhlizi kimi gətirə biləcəyi faydalardadır. Azərbaycan, Gürcüstan və Qazaxıstan və Avropa arasında artan ticarət, o cümlədən regiondaxili ticarətin 37% artması və bu ölkələrlə Avropa İttifaqı arasında ticarətin 28% artması tələbin əsas stimullarıdır.

*"İndi Orta Dəhlizi daha rəqabətqabiliyyətli etmək, onun imkanlarını genişləndirmək, səmərəsizlikləri aradan qaldırmaq və xərcləri azaltmaq üçün əlverişli məqamdır", -* ***Dünya Bankının Avropa və Mərkəzi Asiya üzrə Regional infrastruktur direktoru Charles Cormier*** bildirib*. "İnstitusional və əməliyyat tədbirləri vasitəsilə səmərəlilikdə qısamüddətli nailiyyətlər ortamüddətli investisiyalarla birlikdə Orta Dəhlizin fəaliyyətini gücləndirəcək və onun potensialını artıracaq".*

Hesabatda nəqliyyata olan tələbata cavab vermək və Qazaxıstan, Azərbaycan və Gürcüstanda iqtisadi inkişafı dəstəkləmək məqsədilə tələb olunan əsas siyasətlər və investisiyalar müəyyən olunur. Bura daxildir:

- Dəhliz boyu maneəsiz əməliyyatları təmin etmək üçün bütün dəhliz boyunca logistik həllərin təqdim olunması.
- Multimodal dəhlizlərin nəqliyyat, məlumat və xarakterik xüsusiyyətlərinin mübadiləsini asanlaşdırmaq üçün xüsusilə sərhəd keçidlərində proses və prosedurların islahatının həyata keçirilməsi və sadələşdirilməsi.
- İzləməni artırmaq və sərhədlərdə və əməliyyat interfeyslərində gecikmələri azaltmaq üçün rəqəmsallaşmanın əlaqələndirilməsi. Vahid, qarşılıqlı fəaliyyət göstərə bilən çərçivə dəhlizdə proseslərin və fəaliyyətlərin rəqəmsal transformasiyasını asanlaşdıra bilər.
- Gəmilərin mövcudluğu və limanların məhsuldarlığının artırılması sahəsində mənеələrin aradan qaldırılmasına diqqət yetirməklə Xəzər və Qara dəniz keçidlərində fəaliyyətin yaxşılaşdırılması.
- İnvestisiyaların prioritetləşdirilməsi üzrə vahid sistemin razılaşdırılması. Hesabatda əlavə olaraq qiymətləndirilməli və prioritetləşdirilməli olan bir sıra investisiya imkanları müəyyən olunur.

**Əlaqə:**
*Vaşinqtonda:* Zarina Nurmuxambetova znurmukhambetova@worldbank.org

Veb sayt: www.worldbank.org/eca
Facebook: http://www.facebook.com/worldbank/EuropeCentralAsia
Twitter: http://www.twitter.com/worldbankECA

**Press-reliz**
2024/ECA/043